## ŞEŞƏ HAQQINDA

Şəşə uşaq doğulandan sonra altıncı gün gəlir. Uşağı aparır, boğub öldürür, uşağa bir xətər yetirir. Mənim üç uşağım var, üçündə də uşaq doğulandan sonra altıncı günnəri gecərə səhərə kimi yatmamışam ki, yataram, yuxuya qalaram, şeşə gələr uşağa bir şey eliyər. Həmin gün zahını tək qoymurlar. Altıncı gün evin hər küncünə düyü, buğda səpərdik ki, şəşə uşağı aparmasın. Düyünü səpməyin mənası bilirsən nədir? Şəşə gəlir, düyünü yeyir, uşağı yaddan çıxardır. Yəni düyüdən keçə bilmir, undan keçə bilmir. Unu biz hətta qovurardıx ki, iyi çıxsın. Şəşə unun iyindən doyur, gəlmirdi. Bir adam bunu eləmiyib, gecə yuxuda görüb ki, şəşə kölgə kimi gəlir. Durup hay-haray salıb. Tez-bazar düyü də götürüb, un da götürüb. Boşqabda un qoyub, düyü səpib. Ondan sonra, deyir, o qaranlıx getdi, rahat yatdım.

Şəşə adam kimi bir şeydir. Əsasən çiləli, qırxlı uşağın üsdünə gəlir. Çiləli qadın qarannığ yerə getməsin, ağac dibinə getməsin. Yani bu mağamlarda uşağa bir zərər yetirər. Deyirlər ki, qırx günə kimi uşağı gərək gözlüyəsən. Uşağın paltarını həyətdə saxlamıyasan, məftildə saxlamıyasan. Axşam çağı uşağı həyətə düşürtməyəsən, ağac altına aparmayasan. Mənim uşaqlarım qırxlı olanda heç vaxt onların paltarın həyətdə saxlamamışam. Mən əhəmiyyət verməzdim, amma qaynanam deyərdi ki, uşağın paltarını heyətdə saxlamaq olmaz, get götür. Paltarları yığışdırtdırardı.

*Söyləyən: Həsənova Nisə Şirməmməd qızı, Masallı rayonu, Miyankü kəndi, təvəllüdü 1959, təhsili orta.*